https://doi.org/10.36719/2706-6185/42/87-93

**Elnurə Quliyeva**
Heydər Əliyev adına Hərbi İnstitut
eq634061@gmail.com
https://orcid.org/0009-0000-1846-7475

# İnnovativ təlim metodlarının tətbiqində müəllimin fasilitator funksiyası

**Xülasə**

Müəllim və fasilitatorların innovativ təlim metodlarının tətbiqində rolu, müasir təhsilin keyfiyyətini artırmaq üçün əhəmiyyətlidir. Müəllimlər yenilikçi metodlar vasitəsilə tələbələrin marağını artırmağa çalışırlar. Onlar tədris materialını interaktiv, oyunlar, layihələr və müzakirələr kimi müxtəlif yollarla təqdim edərək öyrənmə mühitini canlandırırlar. Bu yanaşma tələbələrin fəal iştirakını təmin edir. Fasilitatorlar isə daha çox müstəqil öyrənməyə yönəlmiş metodlarla, tələbələrin öz düşüncə və bacarıqlarını inkişaf etdirmələrini dəstəkləyirlər. Onlar müzakirələri yönləndirir, qrup dinamikasını yaradır və tələbələrin qarşılıqlı əlaqələrini gücləndirirlər. Fasilitatorun rolu tələbələrin problem həll etmə və kritik düşünmə bacarıqlarını inkişaf etdirməkdir. Müəllim və fasilitatorlar arasında əməkdaşlıq vacibdir. Onlar birlikdə yeni təlim strategiyalarını inkişaf etdirərək, daha inklüziv və təsirli öyrənmə mühiti yarada bilirlər. Bu əməkdaşlıq təhsil sisteminin çevikliyini artırır və innovativ yanaşmaların tətbiqini asanlaşdırır.

***Açar sözlər:*** *fasilitator, qiymətləndirmə, təlim metodları, motivasiya, qarşılıqlı əlaqə, kreativlik*

**Elnura Guliyeva**
Military Institute named after Heydar Aliyev
eq634061@gmail.com
https://orcid.org/0009-0000-1846-7475

# In the Application of Innovative Teaching Methods the Teacher's Facilitator Function

**Abstract**

The role of teachers and facilitators in applying innovative teaching methods is crucial for enhancing the quality of education. Teachers aim to engage students by using creative approaches, such as interactive activities, games, projects, and discussions. This dynamic presentation of material fosters active participation and deeper learning. Facilitators focus on promoting independent learning, supporting students in developing their critical thinking and problem-solving skills. They guide discussions, foster group dynamics, and enhance student interactions. Collaboration between teachers and facilitators is vital, as it allows them to create inclusive and effective learning environments. Together, they can design new teaching strategies that enhance the flexibility of the educational system and facilitate the integration of innovative approaches. Overall, their combined efforts play a significant role in shaping a modern, engaging educational experience.

***Keywords:*** *facilitator, assessment, teaching methods, motivation, interaction, creativity*

## Giriş

Təhsil sahəsindəki sürətli inkişaf və dəyişikliklər müəllimin və onun fasilitator funksiyasını innovativ təlim metodlarının tətbiqində zəruri edir. Təhsildə tələbələrin daha fəal iştirakını təmin etmək, onların yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirmək və daha cəlbedici öyrənmə mühitini yaratmaq məqsədini güdür.

Təhsil cəmiyyətin inkişafı və fərdlərin bir şəxsiyyət kimi formalaşması üçün mühüm bir prosesdir. Bu prosesdə müəllimin fasilitator funksiyasını unutmaq olmaz. Müəllimlər ənənəvi bilik ötürmə metodları ilə tanınan, müstəqil və təcrübəli peşəkarlardır. Onlar tələbələrə akademik biliklər

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

verərək onların inkişafına və təhsildə irəliləməsinə şərait yaradırlar. Müəllimlərin rolu sadəcə bilik verməklə məhdudlaşmır; onlar eyni zamanda tələbələrin düşünmə bacarıqlarını inkişaf etdirmək, motivasiyalarını artırmaq və onlara həyatda uğur qazanmaq üçün lazım olan bacarıqları aşılamaq məqsədini güdürlər.

**Tədqiqat**

Digər tərəfdən müəllimin fasilitator funksiyası öyrənmə prosesində fərqli bir yanaşma təqdim edir. Onlar iştirakçıların öz biliklərini kəşf etməsinə, müzakirələrə qoşulmasına və fərdi fikirlərini paylaşmasına imkan tanıyan bir mühit yaradırlar. Fasilitatorlar iştirakçıların öyrənmə prosesini daha fəal, cəlbedici və dinamik etməyə çalışırlar. Bu yanaşma tələbələrin öz təcrübələrini paylaşmalarına, problemləri birgə həll etmələrinə və tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirmələrinə şərait yaradır.

Dilçi alim Vienna S. belə hesab edir ki, müasir təhsil sistemində müəllim və fasilitator rolu arasındakı sərhədlər getdikcə bir-birinə qarışmağa başlayır. Belə ki, müxtəlif öyrənmə yanaşmaları texnologiyaların tətbiqi və qlobal tendensiyalar müəllimlərin daha çox fasilitator rolu oynamağa başlamasına səbəb olur (Vienna, 2008, p. 2). Təhsil sahəsindəki bu dəyişikliklər müəllim və fasilitator rolunu daha da əhəmiyyətli edir. Onların hər biri öyrənmə mühitinin keyfiyyətini artırmaq və tələbələrin inkişafını dəstəkləmək üçün özünəməxsus üsullardan istifadə edirlər.

Müəllimlər bilik vermə bacarıqları ilə yanaşı, tələbələrin fərdi ehtiyaclarına uyğunlaşmağı da öyrənməlidirlər. Fasilitatorlar isə müzakirələri və interaktiv öyrənmə fəaliyyətlərini təşviq edərək tələbələrin özünə inamını artırmalıdırlar.

Tədqiqatçı alim T. C. Clapperin araşdırmalarına görə müəllim tələbənin yeni bilik və bacarıq əldə etməsinə yönələn mühit yaratmalı və onu inkişaf etdirməlidir. Fasilitator isə tələbələrin bir qrupda birgə işləmək mühitini yaradaraq öyrənmə prosesini mümkün qədər asan mənimsəməsinə səviyyəsinə gətirib çıxarılmalıdır (Clapper, 2009, p. 4).

Bu məqalədə müəllim və fasilitator arasındakı fərqləri, oxşarlıqları və onların bir-birini necə tamamladığını daha ətraflı şəkildə araşdırmağa çalışmışıq. Müasir təhsil sitemtində bu iki rolun əhəmiyyətini, tələbələrin inkişafına olan təsirlərini və gələcəkdəki perspektivlərini müzakirə edəcəyik. Beləliklə, bu məqalədə əsas məqsəd təhsilin dinamik dünyasında müəllim və fasilitatorun yerini, funksiyalarını və qarşılıqlı təsirlərini daha dərindən anlamaq imkanına nail olmaqdır.

**Müəllim kimdir?**

Müəllim təhsil prosesində bilik verən, yönləndirən və tələbələrin inkişafını izləyən peşəkardır. Onun əsas vəzifələri arasında dərs planlaşdırmaq, tələbələrin ehtiyaclarına uyğun metodlar seçmək, qiymətləndirmələr aparmaq və tələbələrin motivasiyasını yüksəltmək durur. Müəllimlər müxtəlif tədris yanaşmalarından istifadə edərək bilik və bacarıqların öyrədilməsini təmin edir. Tədqiqatçı Purnama N. D. öz araşdırmaları nəticəsində belə bir fikrə gəlmişdir ki, müəllimlər yalnız akademik biliklərin öyrədilməsi ilə kifayətlənməyərək, tələbələrin düşünmə qabiliyyətlərini inkişaf etdirmək, sosial bacarıqlarını artırmaq və onlara həyat üçün lazım olan digər bilikləri aşılamaq məqsədini güdürlər (Purnama, 2015, p. 36).

Müəllimlərin rolunu daha yaxşı anlamaq üçün onların funksiyalarını daha ətraflı nəzərdən keçirək:

1. **Bilik verilməsi**: Müəllim müxtəlif fənlərdə bilikləri təqdim edir. Bu prosesdə müasir dərs metodları, vizual və interaktiv materiallar, texnologiyadan istifadə kimi yanaşmalar tətbiq edilir. Müəllim yeni biliklərin anlaşılmasını asanlaşdırmaq üçün tələbələrin əvvəlki biliklərini nəzərə alır.
2. **Dərs planlaşdırması**: Müəllimlər dərsləri planlayaraq tələbələrin inkişafına uyğun olaraq hədəflər müəyyən edirlər. Bu planlar dərs prosesinin strukturunu təmin edir və məqsədli öyrənmə mühiti yaradır.
3. **Qiymətləndirmə**: Müəllimlər tələbələrin bilik və bacarıqlarını qiymətləndirərək onların inkişafını izləyirlər. Bu qiymətləndirmələr yalnız testlər və imtahanlarla məhdudlaşmır; eyni zamanda, aktiv iştirak, layihə işləri və müzakirələr kimi müxtəlif metodlarla da həyata keçirilir.
4. **Mentorluq**: Müəllimlər tələbələrə yalnız akademik məsələlərdə deyil, eyni zamanda şəxsi inkişafları ilə bağlı dəstək olurlar. Onlar tələbələrin motivasiyasını artırmaq, onları yönləndirmək və problemləri həll etməkdə kömək edirlər.

**Fasilitator kimdir?**

Fasilitator öyrənmə mühitini asanlaşdıran, iştirakçıların biliklərini kəşf etmələrinə və öz təcrübələrini bölüşmələrinə imkan tanıyan bir rol oynayır. Fasilitatorlar müzakirələrin inkişafını yönləndirmək, iştirakçıların aktiv iştirakını təşviq etmək və qrup dinamikasını idarə etmək üçün müxtəlif üsullardan istifadə edirlər. Onların məqsədi iştirakçıların öz fikirlərini sərbəst şəkildə ifadə etmələrini təmin etməkdir.

Dilçi Villiam və Dunn öz məqaləsində belə bir fikir irəli sürmüşlər ki, innovativ təlim metodlarının sürətli tətbiqi müəllimin rolunu fasilitator roluna çevirir. İnnovativ təlim metodlarının tətbiqində qarşılıqlı əlaqə əsasdır. Əgər qulaq asırsansa, unuda, əgər görürsənsə, xatırlaya, əgər üzərində düşünərək edirsənə, öyrənə bilərsən. Məhz bu gün innovativ təlim metodlarının tətbiqi sayəsində tələbə mərkəzli öyrənmə metodu tam üstünlük təşkil edir (Villiam & Dunn, 2008, p. 176).

Fasilitatorların rolunu daha ətraflı nəzərdən keçirək:

1. **Öyrənmə mühitinin yaradılması**: Fasilitatorlar iştirakçıların rahat hiss etməsi və öz fikirlərini sərbəst ifadə edə bilməsi üçün uyğun bir mühit yaradırlar. Onlar müzakirələrin açıq və dostyana olmasını təmin edərək hər kəsin fikrini bölüşməsinə şərait yaradırlar.
2. **Sualların yönləndirilməsi**: Fasilitatorlar iştirakçıları düşündürən və müzakirəni canlandıran suallar verirlər. Bu suallar iştirakçıların öz biliklərini kəşf etmələrinə və yeni anlayışlar qazanmalarına kömək edir.
3. **Aktiv iştirakın təşviqi**: Fasilitatorlar iştirakçıların müzakirələrdə aktiv rol almalarını təşviq edirlər. Onlar hər kəsin fikirlərini eşitmək və dəyərləndirmək üçün müzakirələri istiqamətləndirirlər.
4. **Qrup dinamikasının idarə edilməsi**: Fasilitatorlar qrup daxilində qarşılıqlı əlaqələri izləyirlər və müzakirələrin sağlam şəkildə davam etməsini təmin edirlər. Onlar iştirakçıların bir-biri ilə daha məhsuldar müzakirələr aparmalarını asanlaşdırmaq üçün lazımi müdaxilələr edə bilərlər.

Müəllim və fasilitator təhsil prosesində fərqli, lakin bir-birini tamamlayan rollara malikdir. Müəllimlər bilik verən və tələbələri yönləndirən peşəkarlardır, fasilitatorlar isə iştirakçıların öyrənmə prosesini asanlaşdıran və onların aktiv iştirakını təmin edən şəxslərdir. Hər iki rol, tələbələrin inkişafını dəstəkləmək və keyfiyyətli təhsil mühiti yaratmaq məqsədini güdür. Bu səbəbdən müəllim və fasilitatorun funksiyalarını anlamaq, müasir təhsil sisteminin daha effektiv olması üçün əhəmiyyətlidir (Musseau Ashley Innovative Teaching Techniques by Learning Facilitators, 2024).

**Müəllim və fasilitator arasındakı fərqlər**

Müəllimlərin ünsiyyət üslubu adətən müəllim mərkəzli olur. Onlar tələbələrdən aktiv iştirak gözləyirlər və dərs zamanı əsas məlumat mənbəyidirlər. Fasilitatorların ünsiyyət üslubu isə iştirakçı mərkəzlidir. Onlar suallar verərək, dinləyərək və yönləndirərək öyrənmə prosesini asanlaşdırırlar. Bu fərq hər iki rolun özünəməxsus yanaşmalarını və öyrənmə mühitinə olan təsirini göstərir.

Dilçi Starkey L. araşdırmaları nəticəsində belə bir qənaətə gəlmişdir ki, təhsil sistemində müəllim və fasilitator rolları öyrənmə prosesində fərqli yanaşmalar və funksiyalar təklif edir. Hər iki rol tələbələrin inkişafını dəstəkləmək məqsədini güdür, lakin onların yanaşma üslubları, metodları və öyrətmə prinsipləri arasında əhəmiyyətli fərqlər vardır.

**1. Yanaşma üslubu**

Müəllim ənənəvi yanaşma ilə bilik verən bir şəxsdir. Onun yanaşması müəllim mərkəzlidir; yəni, dərs prosesinin mərkəzində müəllim durur və tələbələrdən aktiv iştirak gözləyir. Müəllim dərs planı hazırlayır, dərs materiallarını təqdim edir və tələbələrin biliklərini qiymətləndirir. Bu yanaşma biliklərin sistemli və strukturlaşdırılmış şəkildə təqdim edilməsini təmin edir.

Fasilitator isə iştirakçı yanaşma tərzi ilə öyrənmə mühitini asanlaşdırır. O, daha çox sual verərək, müzakirələri yönləndirərək və iştirakçıların öz fikirlərini ifadə etmələrinə imkan tanıyaraq öyrənmə prosesini dəstəkləyir. Fasilitatorlar iştirakçıların öz biliklərini kəşf etmələrini təşviq edir və onların aktiv iştirakını təmin etməyə çalışırlar. Bu yanaşma öyrənmənin daha dinamik və cəlbedici olmasını təmin edir.

**2. Rolun funksiyaları**

Müəllimin funksiyaları, bilik vermək, dərs planlamaq, qiymətləndirmək və mentor olmaqla bağlıdır. Müəllim dərs proqramını hazırlayır, tələbələrin qazandıqları bilik səviyyəsini izləyir və onlara akademik dəstək verir. Onun rolu tələbələrin biliyini artırmaq və onların inkişafını yönləndirməkdir.

Fasilitatorun funksiyaları isə daha çox öyrənmə mühitini idarə etmək və iştirakçıların öz biliklərini kəşf etmələrini təmin etməkdən ibarətdir. Fasilitator müzakirələri yönləndirərək iştirakçıların suallarını cavablandırır, onları düşünməyə təşviq edir və qrup dinamikasını idarə edir. Bu rol iştirakçıların öz təcrübələrini bölüşmələrinə, bir-birlərindən öyrənmələrinə və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirmələrinə imkan tanıyır.

**3. İştirakçıların rolu**

Müəllim tərəfindən idarə olunan dərslərdə iştirakçıların rolu daha passivdir. Tələbələr müəllimdən bilik alır və bu bilikləri mənimsəməyə çalışırlar. Onlar dərs zamanı müəllimin verdiyi məlumatları dinləyir və lazım olduqda suallar verirlər. Bu yanaşma müəyyən bir struktura malik olsa da, tələbələrin aktiv iştirakını məhdudlaşdıra bilər.

Fasilitator mühitində iştirakçıların rolu daha aktivdir. Onlar müzakirələrdə iştirak edirlər, fikir mübadiləsi aparırlar və öz biliklərini bölüşürlər. Fasilitator iştirakçıların düşüncələrini eşidərək onların fikir mübadiləsini təşviq edir. Bu yanaşma tələbələrin özlərinə inamını artırır və onlara öyrənmə prosesində daha çox məsuliyyət hissi verir (Facilitator vs Teacher: Promoting Learning Through Engagement, 2022).

**4. Tədris metodları**

Müəllimlər adətən ənənəvi tədris metodlarından istifadə edirlər. Bu metodlar dərs izahları, təqdimatlar, yazılı imtahanlar və qiymətləndirmələrə əsaslanır. Müəllim müəyyən bir dərs proqramına uyğun olaraq məlumatları təqdim edir və tələbələrin öyrənmə prosesini izləyir. Bu yanaşma biliklərin sistemli şəkildə öyrədilməsini təmin edir, lakin interaktivliyi məhdudlaşdıra bilər.

Fasilitatorlar isə interaktiv öyrənmə metodlarından istifadə edirlər. Onlar müzakirələr, qrup işləri, layihələr və oyunlar vasitəsilə öyrənmə mühitini dinamikləşdirirlər. Fasilitatorlar iştirakçıların biliklərini kəşf etmələrini təmin edərək onların öyrənmə prosesinə daha fəal qatılmalarına şərait yaradırlar. Bu metodlar tələbələrin düşüncə tərzini inkişaf etdirmək və yaradıcı yanaşmalarını artırmaq üçün əsas hesab olunur (Starkley, 2012)

**5. Qiymətləndirmə**

Müəllimlər qiymətləndirmə prosesində daha çox formal yanaşma tətbiq edirlər. Onlar testlər, imtahanlar və yazılı tapşırıqlar vasitəsilə tələbələrin biliyini qiymətləndirirlər. Bu yanaşma tələbələrin öyrəndiklərini qiymətləndirmək üçün effektiv olsa da, bəzən iştirakçıların yaradıcılıq və tənqidi düşünmə qabiliyyətlərini qiymətləndirməkdə çətinliklər yarada bilər.

Fasilitatorlar isə qiymətləndirmə prosesini daha az formal yollarla həyata keçirirlər. Onlar qrup müzakirələrini, layihələri və iştirakçıların öz aralarındakı qarşılıqlı əlaqələri izləyərək, öyrənmə prosesinin keyfiyyətini qiymətləndirirlər. Bu yanaşma tələbələrin yaradıcılıq qabiliyyətlərini daha yaxşı başa düşməyə və onların fərdi inkişafını izləməyə imkan verir.

**6. Təhsil mühitinin idarə edilməsi**

Müəllim təhsil mühitini daha çox idarə edir. O, dərs prosesinin strukturu, tempi və istiqamətini müəyyən edir. Müəllim tələbələrin davranışlarını izləyərək dərs zamanı yaranan problemləri həll edir. Bu yanaşma öyrənmə mühitinin sabit və nizamlı olmasını təmin edir.

Fasilitator öyrənmə mühitini daha az idarə edir. O, iştirakçıların öz aralarındakı qarşılıqlı əlaqələrini təşviq edir və müzakirələrin açıq və konstruktiv olmasını təmin etməyə çalışır. Fasilitatorlar iştirakçıların öz biliklərini kəşf etmələrinə və bir-birlərindən öyrənmələrinə imkan tanıyan bir mühit yaradırlar (Nankar & Shirode, 2009).

Dilçi Hogan C. tədqiqatları nəticəsində belə bir fikrə gəlmişdir ki, müəllim və fasilitator arasındakı fərqlər onların yanaşmalarından, funksiyalarından, iştirakçıların rollarından, tədris metodlarından, qiymətləndirmə üsullarından və təhsil mühitinin idarə edilməsindən qaynaqlanır. Hər iki rol təhsil prosesinin effektivliyini artırmaq və tələbələrin inkişafını dəstəkləmək məqsədi güdür. Müəllimlər bilik verərək və yönləndirərək öyrənmə prosesini dəstəkləyirlər, fasilitatorlar isə bu prosesin iştirakçı mərkəzli olmasını təmin edərək, tələbələrin öz biliklərini kəşf etmələrinə imkan yaradırlar. Bu iki rolun bir-birini tamamlaması müasir təhsil sisteminin dinamikliyini və effektivliyini artırır (Hogan, 2002, p. 36).

Dilçi Robin T. Bye hesab edir ki, müasir təhsil sistemində müəllim və fasilitatorun rolu getdikcə daha çox əhəmiyyət qazanır. Müəllim klassik biliklərin öyrədilməsi ilə yanaşı, tənqidi düşünmə,

problem həll etmə və yaradıcı yanaşmaların inkişafına da diqqət yetirməlidir. Fasilitator isə tələbələrin aktiv iştirakını təmin edərək onların öz biliklərini kəşf etmələrinə kömək edir (Robin, 2017, p. 189).

**Müəllim və fasilitatorun innovativ təlim metodlarının tətbiqində rolu**

Müəllim və fasilitatorun innovativ təlim metodlarının tətbiqində rolu danılmazdır. Müəllim və fasilitatorlar innovativ təlim metodlarını düzgün seçib təlim prosesində tətbiq edə bilərsə, dərsin səmərəliliyinə və dərin mənimsənilməsinə nail ola bilərlər. Müəllim və fasilitator auditoriyada təhsil alan üçün əhatəli və əlçatan təhsil mühiti yaratmalıdır. Tələbələrin inkişafını daim yoxlamalı və düzgün yolda addımladıqlarına əmin olmalıdırlar.

Dilçi Prakash Jagtap məqaləsində innovativ təlim metodlarının tətbiqində müəllim və fasilitatorun rolunu araşdırmışdır. O hesab edir ki, fəal təlim metodları, fəal öyrənmə mühiti və layihə əsaslı öyrnmə metodları tədris prosesində müəllimi əsas faktora çevirir. Müəllim yeni metodları qəbul etməli və dərsdə daim istifadə etməlidir. Fasilitatorlar tələbənin sanki dostu olurlar və daim əməkdaşlıq edirlər. Onlar məsləhətçi, məlumat ötürən və sorğu aparan rolu oynayır və tələbələri istiqamətləndirirlər (Prakash, 2016, p. 3904). Müəllim və fasilitatorun innovativ təlim metodlarının tətbiqindəki rolu aşağıdakı kimi xarakterizə etmək olar.

**Müəllimin rolu**

**A. Metodların seçimi və tətbiqi**

Müəllim təlim metodlarının seçilməsində və tətbiqində mərkəzi bir rol oynayır. Onlar tədris proqramına uyğun innovativ metodları müəyyən etməli, bu metodların necə tətbiq olunacağını planlaşdırmalı və dərslərdə istifadə etməlidirlər. Müəllim tələbələrin yaşına, bilik səviyyəsinə və maraqlarına uyğun metodlar seçərək onların daha səmərəli öyrənməsini təmin edə bilər.

**B. İştirakın təşviqi**

Müəllim innovativ təlim metodlarını tətbiq edərkən tələbələrin aktiv iştirakını təmin etməlidir. Onlar tələbələrin suallar verməsini, müzakirələrə qoşulmasını və qrup fəaliyyətlərində iştirak etməsini təşviq edən bir mühit yaratmalıdır. Müəllimlərin motivasiyaedici rol oynayaraq tələbələrə öz fikirlərini sərbəst ifadə etməyə imkan tanıması öyrənmə prosesinin keyfiyyətini artırır.

**C. Dəstək və rəhbərlik**

Müəllim innovativ təlim metodlarının tətbiqi zamanı tələbələrə dəstək və rəhbərlik etməlidir. Tələbələr yeni metodları tətbiq edərkən çətinliklərlə qarşılaşa bilərlər. Müəllim onların problemlərini dinləyərək həll yolları təqdim etməli və onları yeni təlim metodlarını tətbiq etməyə yönləndirməlidir. Bu tələbələrin özünə inamını artırır və öyrənmə prosesinə daha fəal qatılmalarını təmin edir.

**Fasilitatorların rolu**

**A. İştirakçı mərkəzli yanaşma**

Fasilitator innovativ təlim metodlarının tətbiqində iştirakçı yanaşma tərzini təşviq edir. Onlar tələbələrin öz biliklərini kəşf etmələrinə, fikir mübadiləsi aparmalarına və bir-birlərindən öyrənmələrinə imkan yaradır. Fasilitatorlar tələbələrin düşüncə tərzini inkişaf etdirmək və onların yaradıcı yanaşmalarını stimullaşdırmaq üçün onları müzakirələrə yönləndirirlər.

**B. Qrup dinamikasının idarə edilməsi**

Fasilitator qrup dinamikasını idarə edərək öyrənmə mühitinin sağlam olmasını təmin edir. Onlar müzakirələrin konstruktiv şəkildə davam etməsini, iştirakçıların bir-birilə əməkdaşlıq etməsini və qarşılıqlı hörmətin qorunmasını təşviq edirlər. Bu yanaşma tələbələrin birgə öyrənmə təcrübəsini artırır və kollektiv düşüncə qabiliyyətini inkişaf etdirir.

**C. Fikir mübadiləsi və kreativlik**

Fasilitatorlar tələbələrin yaradıcı fikirlərini ortaya qoymalarına və yeni yanaşmalar inkişaf etdirmələrinə şərait yaradırlar. Onlar iştirakçılara suallar verərək, müzakirələri yönləndirərək və onların fikirlərini dəyərləndirərək, öyrənmə prosesini daha dinamik və cəlbedici hala gətirirlər. Bu yanaşma tələbələrin yaradıcı düşüncə qabiliyyətlərini inkişaf etdirmək və problem həll etmə bacarıqlarını artırmaq üçün əlverişlidir.

İnnovativ təlim metodlarının tətbiqi həm müəllimlərin, həm də fasilitatorların rolunu gücləndirir və tələbələrin öyrənmə təcrübəsini zənginləşdirir. Bu metodların bir sıra üstünlükləri vardır:

- **Tələbələrin aktiv iştirakı**: İnnovativ metodlar tələbələrin dərslərdə daha aktiv iştirak etmələrini təmin edir.
- **Tənqidi düşüncə bacarıqlarının inkişafı**: Bu yanaşmalar tələbələrin tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirmək üçün əlverişlidir.
- **Yaradıcı fikirlərin inkişafı**: Tələbələr innovativ metodlar vasitəsilə öz yaradıcı fikirlərini ortaya qoya bilirlər.
- **Müxtəlif öyrənmə tərzlərinə uyğunlaşma**: İnnovativ metodlar müxtəlif öyrənmə tərzlərinə uyğunlaşma imkanı təqdim edir. Beləliklə, hər bir tələbənin ehtiyaclarını qarşılayır.

**Elmi yenilik**

Müəllim və fasilitator innovativ təlim metodlarının tətbiqində mərkəzi bir rol oynayır. Müəllim bu metodların seçilməsi, tətbiqi və tələbələrin dəstəklənməsi ilə bağlı məsuliyyət daşıyır. Fasilitator isə iştirakçı mərkəzli yanaşmanı təşviq edərək öyrənmə mühitini dinamik və cəlbedici edir. Hər iki rol tələbələrin öyrənmə prosesini zənginləşdirmək, onların aktiv iştirakını artırmaq və yaradıcılıqlarını inkişaf etdirmək məqsədi güdür. Beləliklə, innovativ təlim metodlarının tətbiqi müasir təhsil sisteminin keyfiyyətini artırır və tələbələrin gələcək uğurlarına zəmin yaradır.

**Praktik əhəmiyyət**

Məqalə təhsil işçiləri üçün dəyərli mənbədir. Müəllimin fasilitator funksiyası məqalədə ətraflı izah edilmişdir ki, müəllimlər məqalə materialında səmərəli istifadə edə bilərlər.

## Nəticə

İnnovativ təlim metodlarının tətbiqi gələcəkdə daha da əhəmiyyətli olacaq. Müəllimlərin və fasilitatorların bu metodları səmərəli şəkildə tətbiq edə bilməsi tələbələrin inkişafını dəstəkləmək və müasir təhsil sisteminin tələblərinə cavab vermək üçün vacibdir. Bu şəraitdə müəllimlərin və fasilitatorların peşəkar inkişafı, yeni metodlar öyrənməsi və tətbiqi, təhsil sisteminin keyfiyyətini artıracaq.

Eyni zamanda məktəblərdə, universitetlərdə və digər təhsil müəssisələrində innovativ təlim metodlarının tətbiqi üçün müvafiq mühitin yaradılması da əhəmiyyətlidir. Bu mühit müəllimlərin və fasilitatorların innovativ yanaşmalar tətbiq etməsini asanlaşdırmalı, tələbələrin fəal iştirakını təmin etməli və onların öyrənmə prosesini zənginləşdirməlidir.

Apardığımız tədqiqatları yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, müəllim və fasilitator innovativ təlim metodlarının tətbiqində mərkəzi rol oynayır. Müəllim bilik verərək və yönləndirərək öyrənmə prosesini dəstəkləyir, fasilitator isə bu prosesin iştirakçı mərkəzli olmasını təmin edərək, tələbələrin öz biliklərini kəşf etmələrinə imkan yaradır. İnnovativ təlim metodlarının tətbiqi, müasir təhsil sisteminin keyfiyyətini artırır, tələbələrin motivasiyasını artırır və onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Bu yanaşmalar gələcək nəsillərin daha müstəqil, yaradıcı və tənqidi düşünən fərdlər olmasına zəmin yaradır. Beləliklə, təhsil sahəsindəki bu innovasiyalar, cəmiyyətin inkişafında və gələcək uğurlarında mühüm rol oynayacaq.

## Ədəbiyyat

1. Clapper, T. C. (2009). *Moving away from teaching and a facilitator of learning*.
2. *Facilitator vs Teacher: Promoting Learning Through Engagement.* (2022, October 20). https://soeonline.american.edu/blog/facilitator-vs-teacher/
3. Hogan, C. (2002). *Understanding Facilitation*.
4. Musseau Ashley Innovative Teaching Techniques by Learning Facilitators January. (2024).
5. Nankar, P., & Shirode, S. (2009). *Current trends in Education*. Nutan publication.
6. Prakash Jagtap. (2016). Teacher's Role as facilitator in Learning. *SRJIS*, 3(17).
7. Purnama, N. D. (2015). An Investigation of Teacher's Role af Facilitators in Teaching Writing in the Classroom. *ELT Perspective*, 3(2).
8. Robin, T. (2017). Bye The Teacher as a Facilitator for Learning. Proceedings of the 9th International Conference on Computer Supported Education (CSEDU 2017). Volume 1, pp. 184-195. https://www.scitepress.org/papers/2017/63786/63786.pdf
9. Starkey, L. (2012). *Teaching and learning in the digital age Rutledge*.

10. Vienna, S. (2008). *The role of the teacher as facilitator*.
11. *William and Dunn Difference between Facilitator and Teachers*. (2008).

Daxil oldu: 28.08.2024
Baxışa göndərildi: 31.10.2024
Təsdiq edildi: 01.12.2024
Çap olundu: 30.12.2024